# AZƏRBAYCAN



## Azərbaycan tarixi

**Ərəb xilafəti zəiflədikdən sonra Azərbaycan ərazisində Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadidlər dövlətləri yaranmışdır.**

**IX-cu əsrin ortalarında Azərbaycan Səlcuq imperiyası tərkibinə daxil edilmişdir. Səlcuk imperiyasının süqutundan sonra Azərbaycan ərazisində Şirvanşahlar və Eldənizlər (Atabəylər) dövlətləri dirçəlmiş və möhkəmlənmişdir. Eldənizlər dövləti Azərbaycanın görkəmli siyasi xadimlərindən biri olan Şəmsəddin Eldəniz tərəfindən yaradılmışdır. Onun dövləti Yaxın və Mərkəzi Asiyanın ən qüdrətli dövlətlərindən birinə çevrilmişdir. XV-ci əsrdə Azərbaycanda Qaraqoyunlu və Ağqoyunlu dövlətləri yaranmışdır. Azərbaycanın böyük dövlət xadimi Uzun Həsənin hakimiyyəti dövründə Ağqoyunlu imperiyası bütün Yaxın və Mərkəzi Asiyanın ən güclü hərbi-siyasi dövlətinə çevrilmişdir. Azərbaycanın mədəniyyəti yüksəlmişdir. Uzun Həsən bütün Azərbaycan torpaqlarını birləşdirən güclü dövlətin yaranması siyasətini həyata keçirirdi. Bu məqsədlə onun göstərişi ilə “Qanun-namə” nəşr edilmişdir. O, ölkə iqtisadiyyatının yüksəlməsi üçün əhalinin vəziyyətini yaxşılaşdırmaq, kənd təsərrüfatı sahələrini inkişaf etdirməyə səy göstərirdi. Elm və təhsilin inkişaf etməsinə böyük diqqət göstərirdi. Uzun Həsən dövrünün ən yaxşı müdrik və alimlərini öz sarayında toplamışdı. Uzun Həsənun anası Sara xatun o zaman Şərqdə yeganə qadın-diplomatı idi.**

**Uzun Həsənin nəvəsi – 14 yaşında taxt-taca sahib olmuş görkəmli dövlət xadimi Şah İsmayıl Xətai babasının başladığı işi davam etdirərək, bütün Azərbaycan torpaqlarını birləşdirmişdir. Paytaxtı Təbrizdə olmaqla vahid Azərbaycan dövləti olan Səfəvilər dövləti meydana gəlmişdir. Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın mədəniyyəti xeyli yüksəlmişdir. Böyük imperiyanın ərazisində fars dili ilə yanaşı Azərbaycan dili dövlət dili elan edilmişdir. Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səvəfi hökmdarlarının həyata keçirdiyi uğurlu islahatlar nəticəsində Səfəvi dövləti Yaxın və Mərkəzi Asiyanın ən qüdrətli dövlətlərindən birinə çevrilmişdir.**

**Səfəvilərin zəifləməsindən sonra hakimiyyətə gəlmiş görkəmli Azərbaycan sərkərdəsi Nadir şah Əfşar keçmiş Səfəvi dövlətinin sərhədlərini daha da genişləndirmişdir. XVIII-ci əsrin ikinci yarısında Azərbaycan xırda dövlətlərə – xanlıqlara parçalandı. Bu xanlıqlar arasında olan ixtilaflar ölkəmizin zəbt edilməsi və İran və Rusiya arasında iki yerə – Cənubi və Şimali Azərbaycana bölünməsinə gətirib çıxardı.**

**Müsəlman Şərqində və türk dünyasında 1918-ci il mayın 28-də ilk dəfə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixinə birinci Respublika kimi daxil olmuşdur. O, XX əsrin əvvəlində xalqımıza hüquqi dövlətçilik və sivil demokratiya ənənələrini bəxş etmişdir. Ancaq tezliklə Azərbaycan ərazisi Sovet Rusiyası tərəfindən işğal olunmuş və Azərbaycan Sovet Sosialist Respublikası elan edilmişdir.**

**İkinci Dünya Müharibəsi illərində Azərbaycan xalqı böyük şücaət və qəhrəmanlıq göstərmişdir. Belə ki, Azərbaycandan səfərbər olunan 600 min əsgərdən yarısı Vətənə qayıtmamışdır. Azərbaycanın igid oğulları Həzi Aslanov (2 dəfə), İsrafil Məmmədov, Əhmədiyyə Cəbrayılov, Feyzulla Qurbanov, Mehdi Hüseynzadə və b. Sovet İttifaqı qəhrəmanı adı almışdılar.**

**SSRİ-nin süqutundan sonra Azərbaycanın müstəqilliyi bərpa olunmuş və Azərbaycan Respublikası yaradılmışdır. Müstəqilliyimizin ilk illərində Vətənimiz Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Ərazimizin 20%-inin işğal olunması nəticəsində arasında çoxlu uşaq olan 1 milyondan artıq Azərbaycanlı öz doğma yurd-yuvalarından qovuldu. 1990-1993-cü illər Azərbaycan xalqının yaddaşına qanlı səhifələr kimi yazılmışdır. Bu çətin anda Azərbaycan xalqının və Vətənimizin yeganə ümidi və xilaskarı Heydər Əliyev idi. O zaman bizim müdrik xalqımız yeganə düzgün qərar qəbul edərək dünyanın böyük siyasətçisini hakimiyyətə gətirdi. Ölkədə sabitlik bərqərar oldu.**

**Bu gün XXI-ci əsrin əvvəlində müasir Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin yaradılması sahəsində böyük uğurlar əldə edir. Bu gün müasir Azərbaycan bəşər tarixinin görkəmli şəxsiyyətlərindən olmuş Heydər Əliyevin layiqli davamçısı – İlham Əliyevin rəhbərliyi ilə öz sürətli inkişaf dövrünü yaşayır.**

## Azərbaycan ərazisi

**Azərbaycan Respublikası Cənubi Qafqazın şərqində, Xəzər dənizinin qərb sahilində yerləşir. Ölkəmizin ərazisi 86,6 kv. km-dir. Dövlət sərhədləri: Cənubdan İranla 765 km və Türkiyə ilə 15 km, şimaldan Rusiya ilə 390 km, şimal-qərbdən Gürcüstan ilə 480 km, qərbdən Ermənistan ilə 1007 km həmsərhəddir. Türkmənistan, Qazaxıstan, Rusiya Federasiyası və İran İslam Respublikası ilə dəniz sərhədlərimiz də var. Ölkənin paytaxtı Bakı şəhəridir. Böyük adalar -**
**Pirallahı , Çilov, Xərə-Zirə, Böyük-Zirə. Böyük göllər – Sarısu, Ağgöl, Ağzıbirçala, Mehman, Böyükşor, Hacıqabul. Böyük çaylar – Kür, Araz, Alazan (Qanıx), İori (Qabırrı), Samur, Tərtər.**

**Azərbaycan Respublikasının Konstitusiyasına görə Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Unitarlığın xüsusiyyəti ondan ibarətdir ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.**

**İnzibati-ərazi bölgüsü**

**Azərbaycan Respublikasının tərkibinə bir muxtar qurum – Naxçıvan Muxtar Respublikası, 65 rayon, 69 şəhər, 13 respublika tabeli şəhər, 130 şəhər tipli qəsəbə və 4354 kənd yaşayış**

məntəqəsi daxildir.

## Azərbaycan mədəniyyəti

Azərbaycan xalqının bədii təfəkkürü və yaradıcılığına füsunkar təbiət, əlverişli iqlim şəraiti və bu diyarın təbii ehtiyatları təsir göstərmişdir. Həyat və məişət, gündəlik həyatımızla bağlı xalq sənətkarlığı xalqımızın yarıcılığında əsas yer tutur. Bu incəsənət ta qədimdən indiyə kimi geyimdən müxtəlif bəzək və təsərrüfat əşyalarına qədər olduqca geniş sahəni əhatə edir. Müxtəlif dövrlərdə Azərbaycanın ayrı-ayrı xalçaçılıq məktəblərində (Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz) insanları bu gündə heyran edən xalçalar toxunmuşdur. Onların bir çoxu dünyanın məşhur muzeylərində saxlanılır. Məsələn, Viktoriya və Albert Muzeyində (London), Luvrda (Paris), Metropoliten-muzeydə (Nyu-York), Vyana, Roma, Berlin, İstanbul, Tehran və Qahirənin muzeylərində.

Qədim zamanlardan Azərbaycan xalq incəsənətinin qolu olan memarlıq əsərləri ilə şan-şöhrət qazanmışdır. Bakının Qız Qalası və Şirvanşahlar Sarayı, Naxçıvanda memar Əcəmi tərəfindən yaradılmış Möminə Xatun və Yusif İbn Küseyr türbələri, Şuşada Pənah Əli xan sarayı və şairə Natavanın evi, o cümlədən Şəki Xan Sarayının divarlarında həkk olunmuş rəsmlər memarlıq sənətinin nadir incilərindəndir.

Zəngin mədəniyyət irsi olan Odlar yurdu Azərbaycan eyni zamanda ecaskar musiqinin vətəni kimi tanınır. Xalq mahnıları, rəqslər və aşıq sənəti Azərbaycan milli musiqi sənətində özünəməxsus yer tutur. Azərbaycan milli musiqisinin özəyini muğamlar təşkil edir. Təsadüfi deyil ki, 2003-ci ildə YUNESKO-nun qərarı ilə Azərbaycan muğamları dünya qeyri-maddi mədəniyyət irsi siyahısına daxil edilmişdir. Xanəndələr muğamları məşhur şairlərin – Nizami, Xəqani, Nəsimi, Füzuli və başqalarının qəzəlləri üstündə ifa edirlər. Valehedici musiqimiz haqqında çoxlu şeirlər yazılıb. Onlardan biri S.Vurğunun “Azərbaycan” seiridir:

Gözəl vətən! Mənan dərin,
Beşiyisən gözəllərin!
Aşıq deyər sərin-sərin,
Sən günəşin qucağısan,
Şer, sənət ocağısan.

Ölməz könül, ölməz əsər,
Nizamilər, Füzulilər!
Əlin qələm, sinən dəftər,
De gəlsin hər nəyin vardır,
Deyilən söz yadigardır.

Klassiklərimiz və müasirlərimiz tərəfindən yaradılmış ədəbi əsərlər dünya mədəniyyəti xəzinəsində layiqli yer tutur. M.P.Vaqif, M.F.Axundov, N.Vəzirov, H.Zərdabi, M.S.Ordubadi, H.Zakir, M.Ə.Sabir, C.Məmmədquluzadə və b. yaratdıqları əsərlər indiyədək öz aktuallığını itirməyib.

**Azərbaycan ədəbiyyatı ilə sıx əlaqəsi olan daha bir incəsənət növü teatrdır. Azərbaycanda teatr sənətinin kökləri Azərbaycan xalqının məişət, təntənəli və el şənlikləri ənənələri və dünyagörüşünə söykənir. Azərbaycan xalq teatrı hər zaman realist xarakterli və zəhmətkeş xalqa yaxın olub. Teatr sənətinin tarixi M.F.Axundovun "Lənkəran xanlığının vəziri" və "Hacı qara" tamaşaları ilə başlayıb.**

**Kino zəmanəmizin ən maraqlı və populyar sənət növü olaraq, xalqın həyatına daxil olub və onun ayrılmaz hissəsinə çevrilib. Milli kinomuz ildən-ilə zəngin təcrübə toplayıb. Azərbaycan kinosunda uşaqlar üçün çəkilən filmlər mühüm yer tutur. Bunların arasında "Bir qalanın sirri", "Sehrli xalat", "Qərub cinlər diyarında", "Şir evdən getdi", "Mən mahnı bəstələyirəm", "Əzablı yollar", "Musiqi müəllimi", "Gəmi saatının sirri", "İsmayıl bəyin mücrüsü" filmlərini qeyd etmək lazımdır.**

## Azərbaycan təbiəti

**Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan;
Eşitmişəm uzaqlardan
Sakit axan arazları;
Sınamışam dostu, yarı...**

**El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!**

**Azərbaycan ərazisindən iki iri çay axır – Kür və Araz. Ölkəmizin relyefi mürəkkəbdir və dağ sistemlərindən (şimalda – Böyük Qafqaz, qərb və cənub-qərbdə – Kiçik Qafqaz və cənub-şərqdə – Talış dağları) və Kür-Araz ovalığından ibarətdir. Şahdağdakı Bazardüzü (4466) Azərbaycanın ən hündür zirvəsidir. Palçıq vulkanlarının sayı və müxtəlifliyinə görə Azərbaycan dünyada birinci yer tutur. Azərbaycanın iqliminə, əsasən, coğrafi mövqe, relyef və Xəzər dənizi təsir göstərir. V.V.Keppenə görə, dünyada mövcud olan 11 iqlim tipindən 9-na Azərbaycanda rast gəlinir. Bunlar yarımsəhra, quru çöl, subtropik, yayı quraq keçən mülayim-isti, qışı quraq keçən soyuq, yayı quraq keçən soyuq, yağıntısı bərabər paylanan mülayim-isti, bol yağıntılı soyuq iqlim, dağlıq tundra iqlim tipləridir. Xəzər dənizi dünyanın ən böyük axarsız gölüdür.**

**Azərbaycan Respublikasının ərazisi zəngin floraya malikdir. Ölkə ərazisində dəmirağac, Lənkəran akasiyası, şabalıdyarpaq palıd, Qafqaz xirniyi, bigəvər, şümşad, Eldar şamı və s. ağaclara rast gəlinir. 140 bitki növü "Qırmızı kitab"a salınıb. Ərazimizin 20%-inin Ermənistan tərəfindən işğal olunması nəticəsində Zəngilan rayonunda yerləşən Bəsitçay qoruğunda Şərq çinarı yer üzündən silinmişdir.**

**Azərbaycan Respublikası ərazisində təbii şəraitin müxtəlifliyi ilə əlaqədar onun heyvanlar aləmi də çox rəngarəngdir. Respublika ərazisində çox sayda məməlilər, quşlar, sürünənlər,**

xərçəngkimilər, suda-quruda yaşayanlar və s. qeydə alınmışdır. Azərbaycan Respublikasının “Qırmızı kitab”ına 108 növ heyvanın adı daxil edilmişdir. Onlardan 14 növü məməli, 36 növü quş, 13 növü sürünən və suda-quruda yaşayan, 5 növü balıq, 40 növü həşəratdır.

Nadir flora və faunanın qorunması məqsədilə respublikamızın ərazisində dövlət qoruqları, dövlət təbiət yasaqlıqları və milli parklar yaradılmışdır. Ölkə ərazisində 6 Milli Park (Hirkan, Şirvan, Ağgöl, Ordubad, Abşeron, Altıağac Milli Parkları) və 12 qoruq (Bəsitçay, Qarayazı, Qaragöl, Göy-göl, Qızılağac, İlisu, İsmayıllı, Pirqulu, Türyançay, Zaqatala, Eldar Şamı, Şahbuz, Şirvan qoruqları) fəaliyyət göstərir.

Xəzər dənizi xalqımızın həyatında çox böyük rol oynayır. Yeganə məməli su heyvanı olan Xəzər suiti həm də Yer kürəsinin ən kiçik məməlisidir və “Qırmızı kitab”a daxildir.

Azərbaycan Respublikasının ərazisi faydalı qazıntılarla zəngindir. Abşeron yarımadasında neftin olması haqqında hələ 5000 il əvvəl məlum idi. Ölkə ərazisində dəmir, alüminium, civə, qızıl, mis, qurğuşun, sink kobalt, molibden filizləri var.

Azərbaycan ərazisində müxtəlif kimyəvi tərkibli mineral mənbələri mövcuddur. Tərkib zənginliyinə görə Azərbaycanı “mineral sular muzeyi” adlandırırlar. Kəlbəcərin İstisu, Naxçıvanın Badamlı və Sirab mineral suları ölkəmizin hüdudlarından çox-çox uzaqlarda tanınır. Abşeronun Suraxanı və Zıx, Şabran rayonunun Qalaaltı, Culfa rayonunun Turşsu mineral sularının müalicəvi xüsusiyyətləri məlumdur. Talış dağları, Böyük Qafqazın cənub və şimal-şərq yamacları əsasən termal sularla zəngindir.

## Azərbaycan memarlığı

Xilafətin zəifləməsi və Azərbaycanda xırda dövlətlərin meydana gəlməsi ilə müxtəlif memarlıq məktəbləri yaranmışdır (Aran, Təbriz, Naxçıvan, Şirvan, Abşeron). Məktəblərin memarlıq üslubunda orta cəhətlər var idi. Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yaradılmış Möminə Xatun və Yusif İbn Küseyr türbələri Naxçıvan memarlığının zirvəsi sayılır.

XVIII-ci əsr memarlığının şah əsəri Şəki Xan Sarayıdır. O, Məhəmməd Həsən xanın yay iqamətgahı kimi inşa olunmuşdur. Sarayın fasadı binanın baş fasadı dünyada analoqu olmayan ən xırda, həndəsi fiqurlara bölünmüş, ağac parçaların aralarına müxtəlif rəngli şüşələr geyindirilmiş şəbəkə pəncərə və qapılardan ibarətdir. Binanın daxilində həndəsi naxışlara, nəbatat rəsmlərinə, süjetli və quş rəsmlərinə, döyüş və ov səhnələrinə daha geniş yer verilmişdir. Sarayda 6 otaq, 4 dəhliz və 2 şüşəli balkon var.

İçərişəhər Xəzər dənizi sahilində, kiçik təpə üzərində yerləşir, qala divarları ilə əhatə olunur. Qız Qalası və Şirvanşahlar Sarayı “İçərişəhər” ərazisində yerləşir. Sarayın inşası Şirvanşahlar dövlətinin paytaxtının Şamaxıdan Bakıya köçürülməsi ilə bağlıdır. Şirvanşahlar kompleksinə divanxana, Şirvanşahlar Sarayı, Divanxana, Şirvanşahlar türbəsi, Şah məscidi minarə ilə birlikdə, Seyid Yəhya Bakuvi türbəsi, Murad darvazası, Saray hamamı və Ovdan daxildir. XII-ci əsrdə Qız Qalası Bakının müdafiə sisteminə daxil edildi və

**Bakı Qalasının əsas istehkamı, Şirvanşahların ən əzəmətli qalalarından birinə çevrilmişdir.**

**2000-ci ilin dekabr ayında YUNESKO tərəfindən İçərişəhər və Qız Qalası ilə birlikdə Ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir. Bu gün İçərişəhər ümumbəşəri mədəniyyət irsinin incisi sayılır.**

**Son yüz il ərzində Azərbaycan memarlığı böyük itkilər vermişdir. Bundan əlavə 1990-cı illərdə Azərbaycan Ermənistanın təcavüzünə məruz qalmışdır. Qarabağ müharibəsi nəticəsində Qarabağ və ətraf rayonlar (Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli, Ağdam) erməni təcavüzünə məruz qalmışdır. Bu ərazilərdə Azərbaycanın külli miqdarda memarlıq abidələri vəhşicəsinə məhv edilmişdir.**

## Ana dili

**Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.**

**Hər bir xalq öz dili ilə yaranır.**

**Heydər Əliyev**

**Azərbaycan Respublikasının doqquz milyonluq əhalisinin (2010) gündəlik ünsiyyət vasitəsi və rəsmi dövlət dili Azərbaycan dilidir.**

**Azərbaycan dili İran İslam Respublikasında yaşayan 20 milyonluq azərbaycanlının da ana dilidir. Rusiyada, ABŞ-da, Türkiyədə və Qərbi Avropa ölkələrində bir neçə milyon azərbaycanlı yaşayır. Bir neçə yüzilliklər ərzində müxtəlif ölkələrin sakinləri olmalarına baxmayaraq, bu gün də hansı ölkədə yaşamalarından asılı olmayaraq, azərbaycanlılar bir-birlərini sərbəst anlayırlar. Beləliklə, yer üzündə hazırda Azərbaycan dilində danışan 30 milyondan çox adam yaşayır.**

**Azərbaycan dili genealoji təsnifata görə türk dillərindən biri olub, həmin dil ailəsinin oğuz qrupuna daxildir və ən yaxın qohumları olan türk, türkmən və qaqauz dilləri ilə birlikdə ərazi prinsipinə görə türk dilləri arealının cənub-qərb qrupunu təşkil edirlər.**

**Azərbaycan dili böyük inkişaf yolu keçmiş qədim ədəbi dillərdən biridir. "Kitabi-Dədə Qorqud" dastanlarının dili ədəbi dilimizin şifahi növü kimi qəbul edilərsə, hazırda xalqa ünsiyyət vasitəsi kimi xidmət edən dilin yaşı 1300 ildən çox sayıla bilər. Azərbaycan yazılı ədəbi dilinin tarixi isə hələlik əldə olan materiallara görə XIII əsrdən başlayır.**

**Ana dilinə həmişə xüsusi diqqətlə yanaşan, dilimizin dərin bilicisi Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyun ayının 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzalamışdır.**

**Fərmanda dilimizin öz tarixi inkişafı boyu əldə etdiyi uğurlarla yanaşı, yaşadığımız dövrdə dövlət dili sahəsində yaranmış problemlər də geniş təhlil edilmiş və həmin problemlərin həlli yolları göstərilmişdir.**

**Hazırda Azərbaycanda latın qrafikası əsasında yaradılmış Azərbaycan əlifbasından istifadə edilir.**

## Azərbaycan Respublikasinin Dövlət Rəmzləri

**Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng – Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng – müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng – islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir.**

**DÖVLƏT GERBİ**

**Azərbaycan Respublikasının dövlət gerbi Azərbaycan dövlətinin müstəqilliyi rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.**

**DÖVLƏT HİMNİ**

**1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edildi.**

**Musiqisi: Üzeyir Hacıbəyovun**
**Sözləri: Əhməd Cavadındır**

**Azərbaycan, Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üç rəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə gənclər müştaqdır!**
**Şanlı Vətən, şanlı Vətən!**

**Azərbaycan, Azərbaycan!**

## Qarabağ

**Ermənistanın 1988-ci ildən başlayaraq ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20%-i, yəni Dağlıq Qarabağ, eləcə də ona bitişik 7 rayonun ərazisi işğal olundu. 1988-1994-cü illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində 20 mindən artıq azərbaycanlı həlak olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. Müharibə nəticəsində 1 milyondan artıq soydaşımız öz torpaqlarından qovulmuş və qaçqın vəziyyətinə düşmüş, Azərbaycan irimiqyaslı humanitar fəlakət təhlükəsi ilə üzləşmişdi. Onların arasında uşaqlar da var idi. İnsanlar uzun illər çadırlarda yaşadı, həyatın bütün ağrı-acısını öz çiyinlərində daşıdı.**

**1994-cü ildən başlayaraq əvvəlcə ölkə Prezidenti Heydər Əliyev sülh danışıqları aparmışdır. 2003-cü ildən Prezident İlham Əliyev danışıqları davam etdirir. Azərbaycan dövləti müharibə istəmir, uşaqların sülh şəraitində yaşamağını arzulayır. Ancaq hər bir vətəndaş hər zaman öz Vətənini qorumağa, onun uğrunda döyüşməyə hazır olmalıdır. Bunun üçün uşaqlar yaxşı oxumalı və vətənpərvər ruhda tərbiyə olunmalıdır.**

**İşğal tarixləri**

**Xocalı – 26-02-1992**

**Şuşa – 08-05-1992**

**Laçın – 18-05-1992**

**Xocavənd – 02-10-1992**

**Kəlbəcər – 02-04-1993**

**Ağdərə – 17-06-1993**

**Ağdam – 23-02-1993**

**Cəbrayıl – 23-08-1993**

**Füzuli – 23-08-1993**

**Qubadlı – 31-08-1993**

**Zəngilan – 29-10-1993**